UOT 32:93/94; UOT 327; 930.22

AFƏT GÜLƏLİYEVA

Bakı Dövlət Universiteti "Beynəlxalq münasibətlər" kafedrası
siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
afetgulalieva@gmail.com

BEYNƏLXALQ SİSTEMİN FORMALAŞMASINDA BEYNƏLXALQ MÜQAVİLƏLƏRİN ROLU

DOI: https://doi.org/10.36719/2708-065X/107/141-145

XX yüzilliyin 50-ci illərində beynəlxalq aləmdə baş verən dəyişikliklər, elm və texnikanın inkişafı siyasi elmlərə də yeniliklərə gətirdi. Məhz bu yeniliklərin tələbi olaraq təbiət və humanitar elmlərin uzlaşdırılmış şəkildə öyrənilməsini təklif edən modernist cərəyan formalaşdı. Modernist cərəyan beynəlxalq münasibətlərə bir-birilə qarşılıqlı əlaqədə olan hissələrdən(elementlərdən) ibarət sistem kimi baxmağı təklif edir ki, bu hissələr beynəlxalq münasibətlərin elementləri və ya aktorlarıdır. Nəzəri olaraq beynəlxalq sistem nəzəriyyəsinin praktiki nümunələrini Vestfaliya, Vyana, Versal-Vaşinqton və Yalta-Potstam(və ya BMT sistemi) müqavilələri əsasında formalaşan sistemləri qeyd edə bilərik. Qeyd olunan sistemlərin hər biri müəyyən tarixi dövrün başlanğıcını elan edən müqavilələrə əsaslanıb. Həmin müqavilələrdən irəli gələn şərtlər əsasında dövlətlər arasında münasibətlər formalaşır və sonradan imzalanacaq ikitərəfli və ya çoxtərəfli müqavilələr heç bir halda sistemin əsasını təşkil edən müqavilələrə zidd ola bilməz. Məqalədə beynəlxalq sistem anlayışına qısa aydınlıq gətirilir, Vestfaliya, Vyana, Versal-Vaşinqton və Yalta-Potsdam müqavilələrinin əsas məqamları təhlil olunur.

Açar sözlər: beynəlxalq sistem, sülh müqavilələri, kollektiv təhlükəsizlik, beynəlxalq hüquq, Vestfaliya, Vyana, Versal-Vaşinqton və Yalta-Potstam.

Giriş. Son onilliklərdə beynəlxalq münasibətlərə yeni qeyri-dövlət iştirakçıları – beynəlxalq hökumətlərarası təşkilatlar, qeyri-hökumət təşkilatları, transmilli təşkilatlar, "beynəlmiləl" siyasi partiyalar və s. gəlmiş və onlar dövlətlərlə özünəməxsus şəkildə dialoqa daxil olurlar (1, s.65). XVII yüzilliyin ortalarından etibarən formalaşan beynəlxalq münasibətlər sistemində ciddi dəyişikliklər baş verir və bu dəyişikliklərin araşdırılması beynəlxalq münasibətlərin öyrənilməsində çox vacibdir. İlk növbədə "sistem" anlayışını açıqlamaq və beynəlxalq sistemlərin xüsusiyyətlərinin araşdırılması məsələsi aktuallaşır. Beynəlxalq münasibətlərin tədqiqi sahəsində "sistem" anlayışı bəzi spesifik xüsusiyyətlər qazanmışdır, çünki ən ümumi formada beynəlxalq münasibətlər sistemi, birinin davranışının digərlərinin davranışına təsir etdiyi dövlətlər arasında müntəzəm qarşılıqlı əlaqədir (2, s.31).

İstənilən beynəlxalq münasibətlər sistemini araşdıran zaman onun məkan və zaman baxımından təkamül etdiyi görünür. Qədim dövrlərdən müasir dövrlərə qədər dövlətlərarası ziddiyyətlərin həllində əsas amil güc, əsas vasitə isə müharibə olmuşdur. Dövlətlərin xarici siyasət fəaliyyəti intensivləşdikcə və genişləndikcə, dövlətlərarası münasibətlərin xüsusi sferası formalaşdıqca davamlı mexanizmlərin işlənib hazırlanması və onun tənzimlənməsi üçün xüsusi institutların yaradılması zərurəti yarandı. Dövlətlərarası münasibətlərin institutlaşdırılmasının (latınca institutum - yaradılması, adət-ənənə, təsisat) əsas istiqamətləri bunlardan ibarət idi: a) hüquq normaları sisteminin inkişafı; b) dövlətlərarası səlahiyyətli tənzimləyici orqanların yaradılması; c) dövlətlərin sabit iyerarxiyası kimi dünya düzəninin modelinin formalaşması, onlar arasında münasibətlərin sabitliyinin təmin edilməsi.

Dövlətlərarası münasibətlərin institutlaşdırılmasının ilk uğurlu təcrübəsi Avropada dini və siyasi hakimiyyətin yenidən bölüşdürülməsi üçün əksər Avropa dövlətlərinin Otuz illik müharibəsinə (1618-1648) son qoyan 1648-ci il Vestfaliya sülhü olmuşdur. Vestfaliya sisteminin əsasını 24 may 1648-ci il Myünster, 24 oktyab 1968-ci il Osnabrük və 1659-cu ildə Fransa və İspaniya arasında müharibəyə son qoymuş Pireney sülhü təşkil edir. Bu sistem indiyə qədər olmayan bir sıra yeniliklər gətirdi: 1) beynəlxalq münasibətlərin bir sıra prinsiplərini, xüsusən də suveren dövlətlərin beynəlxalq siyasətin əsas subyekti kimi rolunu qanuniləşməsi (suverenlik bərabərlik); 2) ümumavropa sülhü

şərtlərinin dövlətlər tərəfindən birgə işlənib hazırlanması praktikası; 3) Avropada yeni qüvvələr balansını uzun müddət möhkəmlənməsi; 4) gələcəkdə həyata keçiriləcək dövlətlərarası çoxtərəfli danışıqlar və sazişlər üçün bir model. Məhz Vestfaliya sülh müqaviləsində dövlət beynəlxalq münasibətlərin yeganə və aparıcı subyekti olduğu qeyd olundu.

Qeyd etmək lazımdır ki, Vestfaliya sistemi I Napoleon müharibələri başlayana qədər (150 ildən çox) Avropa dövlətləri arasında böyük müharibələrin baş verməsinin qarşısını aldı və deyə bilərik ki, həmin dövrün böyük qüdrətlərindən olan Osmanlı imperiyası ilə münasibətlərində əsas oldu. Vestfaliya sistemini beynəlxalq münasibətlər sistemi olaraq araşdıran zaman ilk növbədə onun beynəlxalq siyasi anlamına diqqət çəkilir. Həqiqətən, Vestfaliya sülhünün bağlanmasından əvvəlki dövrdə beynəlxalq münasibətlərin bütün iştirakçılarını müəyyən prinsiplərə əməl etməyə məcbur edən heç bir sənəd olmadığına görə, beynəlxalq münasibətlər sistemi anlayışını Vestfaliya sistemi çərçivəsindən kənarda istifadə etmək mümkün deyil (3, s.32).

Vestfaliya sülhündən sonra beynəlxalq münasibətlərin sistemləşməsinin daha bir neçə mərhələsi baş verdi. I Napoleonun hakimiyətə gəlməsi və dünya ağalığı iddialarının başlaması ilə Vestfaliya müqavilələrinin bəndləri qüvvədən düşmüş hesab olundu. Napoleon müharibələrinin nəticələrini yekunlaşdıran və yeni dünya nizamını müəyyən edən Vyana Konqresi (1814-1815) bütün Avropa dövlətlərinin (Osmanlı imperiyası istisna olmaqla) tarixdə ilk toplantısı oldu. Vyana Konqresinin bir neçə çoxtərəfli və ikitərəfli müqavilələri özündə əks etdirən Yekun Aktı Avropanın siyasi xəritəsini əhəmiyyətli dərəcədə dəyişdirdi. Bununla bərabər Vyana müqaviləsi beynəlxalq münasibətlər, eləcə də beynəlxalq hüquqa yeniliklər gətirdi. Belə ki, diplomatik dərəcələrin müəyyənləşdirməklə beynəlxalq diplomatik hüququn əsasları qoyuldu, Reyndə gəmiçilik üzrə Komissiya adlı beynəlxalq təşkilatın yaranmasıyla beynəlxalq çaylarda naviqasiyanın qaydaları müəyyənləşdirildi və s. 1815-ci ilin sentyabrında Vyana konqresi nəticəsində Avstriya, Prussiya və Rusiya monarxlarının Müqəddəs İttifaqı bağlandı və tədricən qitə Avropasının bütün xristian monarxları ona qoşuldu. Müqəddəs İttifaqın yaradılması Vyana sistemində qeyri-dövlət iştirakçılarının da mövcudluğu faktı kimi dəyərləndirilməlidir. Vyana sistemini təhlil edən zaman böyük dövlət, qüvvələr balansı, kollektiv təhlükəsizlik kimi anlayışların da istifadə olunduğunu görə bilmək olar. Bu hadisələr nəticəsində yaradılmış Vyana Beynəlxalq Münasibətlər Sistemi 40 ilə yaxın - 1853-1856-cı illər Krım müharibəsinə qədər Avropada kollektiv təhlükəsizliyi təmin etdi. Vyana sisteminin mövcud olduğu illərdə bütün mübahisəli məsələlər hərbi yolla deyil, diplomatik yolla - beynəlxalq konfransların çağırılması ilə həll edilməli idi. Belə konfranslar sırasında 1856-cı il Paris Konqresi, 1871-ci il London konfransı, 1878-ci il Berlin konfransı və digər konfransların Vyana sisteminin möhkəmlənməsində rolu xüsusi qeyd olunmalıdır (3, s.360).

1871-ci ildə Almaniyanın birləşməsi prosesinin başa çatması ilə baş vermiş dəyişikliklər və kapitalizmin sürətlə inkişafından gələn tələbləri Vyana sistemində dəyişikliyin olması tələbi yaradırdı. Dünyanın yenidən bölüşdürülməsi uğrunda bağlamış birinci dünya müharibəsindən (1914-1918) sonra beynəlxalq münasibətlərin Versal-Vaşinqton sistemi formalaşdı. Yeni sistemin əsasını 1919-cu ildə imzalanmış Versal Sülh Müqaviləsi və qalib dövlətlərlə məğlub olmuş Almaniya və onun müttəfiqləri arasında bağlanmış müqavilələr (Bolqarıstanla-Neyyi, Avstriya- Sen-Jermen, Macarıstanla Trianon, Osmanlı imperiyası ilə- Sevr) təşkil edir. Müqavilələr Almaniya İmperiyası üçün böyük ərazi itkiləri və silahlı qüvvələrinə və hərbi inkişafına məhdudiyyətlər qoyulmasını, ağır təzminat öhdəliyi, dağılmış imperiya ərazilərində yeni Avropa dövlətlərinin yaradılmasını nəzərdə tuturlar.

1921-1922-ci illərdə Vaşinqton konfransında bağlanmış müqavilələrlə birinci dünya müharibəsindən sonrakı sistem tamamlandı. Vaşinqton konfransının gedişatında 1921-ci il dekabrın 13-də ABŞ, İngiltərə, Yaponiya və Fransa "4-lər müqaviləsi", 1922-ci il fevralın 6-da "dəniz silahlarının məhdudlaşdırılması haqqında" "5-lər müqaviləsi" (ABŞ, İngiltərə, Fransa, Yaponiya, İtaliya), 1922-ci il fevralın 6-da "Çində siyasət haqqında" "9-lar müqaviləsi" imzalanır. Onlar Asiya-Sakit okean regionunda yeni qüvvələr balansını, İngiltərə, ABŞ, Yaponiya, Fransa və İtaliya arasında dəniz qüvvələri balansını qurdular, həmçinin Çinə qarşı siyasətin ümumi prinsiplərini razılaşdırdılar. Versal-Vaşinqton beynəlxalq münasibətlər sisteminin prinsipcə mühüm elementi xalqlar arasında əməkdaşlığı inkişaf etdirmək, hərbi münaqişələrin qarşısını almaq və qlobal sülh və təhlükəsizliyi gücləndirmək məqsədilə yaradıl-

mış, dövlətlərin ilk siyasi təşkilatlanması, ilk hökumətlərarası beynəlxalq təşkilat olan Millətlər Cəmiyyətinin yaradılması oldu.

Versal-Vaşinqton sisteminin əsası olan müqavilələrdə məğlub dövlətlərə qarşı olan ağır tələblər, sonrakı illərdə sistemin böyük dövlətləri olan Böyük Britaniya və Fransanın uğursuz xarici siyasəti ("sakitləşdirmə"), Almaniyanın qısa müddət ərzində aldığı maliyyə yardımları hesabına revanş müharibəyə hazır olması, Sovet Rusiyasının sistemdən kənarda qalması, ABŞ-ın sistemdə "müşahidəçi" olaraq iştirak etməsi sistemin daha tez iflasa uğramasına və ikinci dünya müharibəsinə səbəb oldu.

İkinci dünya müharibəsi (1939-1945) sonunda Yalta-Potsdam beynəlxalq münasibətlər sistemi formalaşdı. Bu sistemin əsas prinsipləri antihitler koalisiyasının əsas dövlətlərinin - SSRİ, ABŞ və Böyük Britaniya rəhbərlərinin Yalta (4-11 fevral 1945-ci il) və Potsdam (17 iyul - 2 avqust 1945-ci il) konfranslarının qərarlarında təsbit edilmişdir. Onların həyata keçirilməsi nəticəsində Avropa, sonra isə bütün dünya nüvə güclərinin - ABŞ və SSRİ-nin təsir dairələrinə bölündü. Bu fövqəlgüclərin dünya ağalığı uğrunda mübarizədə kəskin hərbi-siyasi, iqtisadi, mənəvi-mədəni və ideoloji rəqabətin davam etdirildiyi "ikiqütblü dünya" formalaşdı.(4, s.6) "Soyuq müharibə" adlanan həmin sistemdə ən mühüm bənd Birləşmiş Millətlər Təşkilatı (BMT) idi. BMT demək olar ki, bütün dünya dövlətləri daxil olmaqla beynəlxalq siyasətin əsas kollektiv subyektidir və beynəlxalq münaqişələrin sülh yolu ilə həllini, qlobal təhlükəsizliyi və beynəlxalq əməkdaşlığı təmin etmək məqsədi daşıyır. BMT həm də ümumi qəbul edilmiş beynəlxalq hüquq sistemini yaratmışdır. Beləliklə, qlobal, ümumdünya siyasi sistemin formalaşması başa çatdı və sonrakı bütün dünya əhəmiyyətli siyasi hadisələr onun fəaliyyət göstərməsi, dəyişməsi və inkişafı prosesini təmsil etməyə başladı.

1989-1991-ci illərdə Mərkəzi və Şərqi Avropa ölkələrində sosializmin dağılması və SSRİ-nin dağılması ilə Yalta-Potsdam beynəlxalq münasibətlər sistemi öz mövcudluğunu dayandırdı. ABŞ-ın rəhbərlik etdiyi "birqütblü dünya"nın hökmranlığı dövrü başladı. Lakin bu, dünyada hərbi-siyasi sabitliyin möhkəmlənməsinə, dünya siyasi sisteminin strukturunun sadələşdirilməsinə, dünya siyasi prosesinin uyğunsuzluğunun aradan qaldırılmasına gətirib çıxarmadı. İkinci Dünya Müharibəsindən sonra ilk dəfə olaraq Avropa hərbi əməliyyatlara səhnə oldu: Balkanlarda genişmiqyaslı etnik silahlı münaqişələr baş verdi, NATO təyyarələri bir neçə ay ərzində Belqrad və Yuqoslaviyanın digər şəhərlərini bombaladı. Küveytə, İraqa və başqa ölkələrə qarşı hərbi təcavüz aktları törədildi. İslam dünyası ölkələri arasında qarşıdurma güclənir. ABŞ-ın qlobal hegemonluğuna qarşı çıxan və "çoxqütblü dünya" ideyasını təbliğ edən ölkələr, ilk növbədə, Rusiya və Çin meydana çıxdı.

Beləliklə, mövcud dünya nizamının tənzimlənməsi və dünya siyasi sisteminin yenidən formalaşdırılması bir daha aktuallaşır. Bu proseslərdə onların məzmununu daha çox müəyyən edən güclü amil dövrümüzün qlobal silahlı münaqişənin davam edən təhlükəsi, dünya regionları arasında kəskin sosial-iqtisadi bərabərsizlik, sivilizasiyalar arasında mənəvi və ideoloji ziddiyyətlər, ətraf mühitin çirklənməsi və iqlim dəyişikliyi, kütləvi miqrasiya, beynəlxalq terrorizm və s. kimi qlobal problemlərdir.

Nəticə olaraq onu qeyd edə bilərik ki, hər hansı bir sistem kimi, beynəlxalq sistem də doğulur, inkişaf edir, transformasiya edir və daha mürəkkəbləşir. Bu dəyişikliklər həm xarici, həm də daxili amillərlə əlaqədar olur. Erkən müasir dövrdən başlayaraq hər biri müasir dünya siyasi prosesinin formalaşmasına töhfə verən dörd beynəlxalq münasibətlər sistemi formalaşdı. Hər bir sistemin qısa xarakteristikası versək -Vestfaliya sistemi milli suverenlik anlayışını təqdim etdi, Vyana sistemi beynəlxalq hüququn və diplomatiyanın inkişafına töhfə verdi. Versal-Vaşinqton sistemi formalaşmaqda olan qlobal dünya nizamının yeni xətlərini müəyyənləşdirdi, Yalta-Potsdam sistemi isə BMT tərəfindən təmsil olunan beynəlxalq təhlükəsizliyin təməl daşını qoydu. Sistemlərin hər biri qüvvələrin tarazlığı prinsipinə əsaslanmış və formalaşmasından dağılmaya qədər öz inkişafında bir neçə mərhələdən keçmişdir (6, s.52). Beynəlxalq münasibətlər sistemlərinin sabitliyi və mövcudluğu onların dağıdıcı daxili və xarici amillərə qarşı mübarizə qabiliyyətindən asılıdır.

ƏDƏBİYYAT

1. Богатуров А.Д., Косолапов Н.А., Хрусталев М.А. Очерки теории и политического анализа международных отношений. М.: НОФМО, 2002, 380 s.

2. А.Л.Дунаев, Система международных отношений- ответы прошлого на вопросы будущего // Вестн.Моск.ун-та.Сер.25. Международные отношения и мировая политика, 2010, №3, с.29-51.
3. А.Л.Дунаев. Система международных отношений- ответы прошлого на вопросы будущего // Вестн.Моск.ун-та.Сер.25. Международные отношения и мировая политика, 2010, №3, s.29-51.
4. Ирина В.Колосова. Особенности системной истории международных отношений и мировой политики // Международные отношения и мировая политика 2022;9(3):354-366.
5. Сетов Р.А. «Холодная война»: современные трактовки в теории международных отношений // Вестник Московского Университета. Серия: История. 2008; 2: 3-21.
6. Крайнов Г.Н. Эволюци я системы международных отношений и ее особенности на современном этапе // Ученые записки Худжанского государственного университета имени академика Б.Гафурова, 2015 №1, 47-54.
7. Strange S. The Westfailure System // Review of International Studies. 1999. No. 25(3). P.345-354.

АФЕТ ГЮЛЬАЛИЕВА
доцент кафедры «Международные отношения»
Бакинского Государственного Университета, кандидат политических наук

РОЛЬ МЕЖДУНАРОДНЫХ СОГЛАШЕНИЙ В ФОРМИРОВАНИИ МЕЖДУНАРОДНОЙ СИСТЕМЫ

В 1950-х годах изменения на международной арене, а также развитие науки и техники привели к новшествам в политических науках. В ответ на эти изменения сформировалось модернистское направление, предлагающее интегрированное изучение естественных и гуманитарных наук. Этот модернистский подход рассматривает международные отношения как систему, состоящую из взаимосвязанных частей (элементов), которые называются элементами или акторами международных отношений. Теоретические и практические примеры теории международной системы можно найти в системах, сформированных на основе Вестфальского, Венского, Версальско-Вашингтонского и Ялтинско-Потсдамского (или системы ООН) договоров. Каждая из этих систем базируется на договорах, обозначивших начало определённого исторического периода. Отношения между государствами формируются на основе условий, вытекающих из этих договоров, и последующие двусторонние или многосторонние соглашения ни при каких обстоятельствах не могут противоречить основополагающим договорам системы. В статье даётся краткое объяснение понятия международной системы и анализируются ключевые аспекты Вестфальского, Венского, Версальско-Вашингтонского и Ялтинско-Потсдамского договоров.

Ключевые слова: международная система, мирные договоры, коллективная безопасность, международное право, Вестфалия, Вена, Версальско-Вашингтон и Ялта-Потсдам.

AFET GULALIYEVA
Assistant professor of the Department of International relations
of Baku State University, PhD in Political Sciences

THE ROLE OF INTERNATIONAL AGREEMENTS IN THE FORMATION OF THE INTERNATIONAL SYSTEM

In the 1950s, changes in the international arena and advancements in science and technology brought innovations to political science. As a response to these innovations, the modernist school of thought emerged, proposing the integrated study of natural and humanitarian sciences. This modernist approach views international relations as a system composed of interconnected parts (elements), which are referred to as the elements or actors of international relations. Theoretical and practical examples of the international system theory can be identified in the systems established by the Treaties of Westpha-

lia, Vienna, Versailles-Washington, and Yalta-Potsdam (or the UN system). Each of these systems is based on treaties that marked the beginning of a specific historical period. The relations between states are shaped by the conditions set forth in these treaties, and any subsequent bilateral or multilateral agreements cannot, under any circumstances, contradict the foundational treaties of the system. The article provides a brief explanation of the concept of the international system and analyzes the key aspects of the Treaties of Westphalia, Vienna, Versailles-Washington, and Yalta-Potsdam.

Keywords: international system, peace treaties, collective security, international law, Westphalia, Vienna, Versailles-Washington, and Yalta-Potsdam.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 01 noyabr 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 noyabr 2024-cü il.
Rəyçilər: s.e.ü.f.d. Qurban Məmmədov, t.e.d. Sevinc Yusifzadə.